TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASI

---

## SOSİAL, MƏDƏNİ VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSIYASI

**9-CU İCLAS**

*Bakı, 22 aprel, 2022-ci il*

## TÜRKPA-NIN ÜZV ÖLKƏLƏRİNDƏ SOSİAL SAHİBKARLIĞA DƏSTƏK

## TÖVSİYƏ QƏRARI

Parlament Assambleyası:

Sosial inkişafın cəmiyyətdəki hər bir fərdin maksimum potensial əldə etməsi üçün rifahının yaxşılaşdırılmasına dair qlobal tezisi ***nəzərə alaraq****;*

Sosial sahibkarlığın inkişafının Layiqli Əmək və İqtisadi İnkişaf üzrə 2030-cu il Gündəliyinin Məqsədlərinin (DİM 8) və Bərabərsizliyin Azaldılmasının (DİM 10) əsas göstəricilərinə nail olmağa imkan verməli olduğunu ***anlayaraq****;*

Əhalinin sosial cəhətdən həssas təbəqələrinin ictimai sərvətlərin təkrar istehsalı prosesinə cəlb edilməsinin, onlara sosial münasibətlər sisteminə inteqrasiya olmasına və onların sosial həyata bağlılıq hissinin yaranmasının vacibliyini ***qeyd edərək****;*

COVID-19 pandemiyasının bəşəriyyətin yaşayış səviyyəsinə, xüsusilə əhalinin sosial cəhətdən həssas təbəqələrinə çox ciddi mənfi təsir göstərdiyini ***qeyd edərək***;

Əhalinin sosial cəhətdən həssas təbəqələrinin sahibkarlıq fəaliyyətinə cəlb edilməsinin onların həyatının davamlı inkişafı üçün əlverişli şəraitin yaradılması imkanının olduğunu ***təsdiqləyərək;***

TÜRKPA-nın üzv ölkələr arasında əməkdaşlığın, onların məlumat mübadiləsinin və əhalinin sosial cəhətdən həssas təbəqələrinin həyatının yaxşılaşdırılmasına və sadələşdirilməsinə yönəlmiş birgə fəaliyyətlərinin faydalarını ***dərk edərək;***

Davamlı artımın və iqtisadi inkişafın mühüm elementi kimi sosial sahibkarlığın stimullaşdırılması ehtiyaclarını ***qəbul edərək;***

Parlamentlərin və parlamentarilərin qanunların qəbulu, büdcələrin təsdiqi, resursların səfərbər edilməsi ilə milli iqtisadiyyatın sosial sektorunda mühüm rol oynadığını ***təsdiq edərək;***

Parlamentlərin qanunvericilik baxımından sosial sahibkarlığa institusional, infrastruktur və maliyyə dəstəyinin təmin edilməsində əsas rolunu ***nəzərə alaraq;***

**TÜRKPA-nın üzv ölkələrinin parlamentlərinə tövsiyə edir**:

*a) TÜRKPA-nın üzv ölkələri arasında qanunvericiliyin uyğunlaşdırılması və yaxınlaşdırılması ilə sosial sahibkarlıq məsələlərinə dair hüquqi bazanı təkmilləşdirmək;*

*b) TÜRKPA-nın üzv ölkələrinin sosial qurumlarının təşəbbüslərinin tanınması və sosial sahibkarlıq konsepsiyasının cəmiyyətdə yayılması məqsədilə həmin ölkələrdə əhali arasında maarifləndirmə işlərini aparmaq;*

*c) COVID-19 pandemiyası kimi fors-major və ya oxşar hallar nəzərə alınmaqla sosial sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi məqsədilə TÜRKPA-nın üzv ölkələrinin müxtəlif dövlət strukturları arasında, xüsusən qanunvericilik sahəsində əməkdaşlıq və fəaliyyətin sinxronlaşdırılması yollarını araşdırmaq;*

*d) qanunvericilik səviyyəsində vasitəçi və yardımçı təşkilatlar, dövlət və yerli özünüidarəetmə orqanları arasında sosial sahibkarlıq haqqında ümumi anlayışın yaradılması və onlara dəstək məqsədilə sosial müəssisələrin məhsul və xidmətlərinin alınması üçün dövlət və özəl sektorlardan vəsaitlərin cəlb edilməsi üzrə fəaliyyəti müəyyən etmək;*

*e) sosial sahibkarlıq sahəsində məşğulluğun dəstəklənməsi və müvafiq təcrübə mübadiləsinin aparılması məqsədilə səmərəli vergi güzəştləri siyasəti və planın yaradılması istiqamətində TÜRKPA-nın üzv ölkələri ilə əməkdaşlığı inkişaf etdirmək;*

*f) sosial sahibkarlıq siyasətinin işlənib hazırlanmasında inklüziv və çevik yanaşmanın qəbul edilməsi və bürokratik maneələrin və ya icra nöqsanlarının aradan qaldırılması məqsədilə ekspert və hüquqşünaslar arasında müntəzəm olaraq məsləhətləşmələr aparmaq;*

*g) qadın, gənc və əlillər üçün sosial sahibkarlıq proqramlarının səmərəli istifadəsi ilə bağlı milli və beynəlxalq təcrübəni öyrənmək, TÜRKPA-nın üzv ölkələrinin müvafiq sahədə qanunvericiliyini uyğunlaşdırmaq məqsədilə müvafiq sənədləri toplamaq və təhlil etmək;*

*h) həm ali, həm orta təhsil səviyyəsində sosial sahibkarlıq sahəsində təhsili təşkil etmək və TÜRKPA-nın üzv ölkələrinin bu sahədə bilik səviyyəsini artırmaq, iqtisadiyyatın bu seqmentinə yeni aktorları cəlb etmək və cəmiyyətdə məlumatlılığın artırılması üçün ölkələr arasında korporativ (sosial) məsuliyyət, inklüziv müəssisələr, sosial və həmrəylik iqtisadiyyatı, davamlılıq, vençur maliyyələşdirilməsi və insan inkişafı kimi məsələləri əhatə edən fənlərarası tədqiqatlar aparmaq;*

*i) sosial sahibkarlıq sahəsində tədqiqatçılara və təcrübə keçən şəxslər üçün lazımi məlumatları toplamaq və yaymaq, həmçinin müvafiq sahədə TÜRKPA-nın üzv ölkələri arasında əməkdaşlığın prioritetlərini müəyyən etmək.*